**Azərbaycan.** - 2024.- 18 sentyabr. - № 203. - S. 6.

# COP29-a kölgə salmaq cəhdi mənasızdır

## Qərb şvabelərdən istifadə edərək qarayaxma kampaniyasını genişləndirsə də, heç nəyə nail olmayacaq

**Əsmər Qardaşxanova**

**"COP29 ərəfəsində Azərbaycana qarşı qarayaxma kampaniyalarının genişlənməsi gözlənilən idi. Bu, Azərbaycanın suverenliyinə göstərilən təhdid, dövlətimizin apardığı müstəqil siyasətə kölgə salmaq cəhdidir. Amma bu, mənasızdır. Azərbaycan bu gün inkişaf edən, xarici ölkələrlə sağlam münasibətlər yaratmağa çalışan, öz xalqının rifahı üçün əməli tədbirlər həyata keçirən bir dövlətdir. Azərbaycanın müstəqil siyasət yürütməsi, heç bir dövlətin bizə diktəsinin işləməməsi, əlbəttə ki, Qərbi narahat edir".**

"Azərbaycan" qəzetinə açıqlamasında siyasi şərhçi Tahir Rzayev bildirib ki, bəzi dövlətlərə rəhbərlik edənlərə çaxnaşma, insanların qarşı-qarşıya qoyulması lazımdır. Ancaq Prezident İlham Əliyevin müstəqil siyasəti nəticəsində Ermənistan istisna olmaqla qonşu dövlətlərlə, eləcə də dünyanın aparıcı ölkələri ilə sağlam münasibətlərin yaradılması üçün bütün lazımi addımlar atılıb. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Dövlətimiz Avropanın qabaqcıl ölkələri ilə əlaqələrin möhkəmləndirilməsinə böyük önəm verir: "Bu sahədə dövlət başçısı heç bir ölkə ilə məsləhətləşmir, o, xalqın milli mənafeyini, təhlükəsizliyini önə çəkir, inkişaf üçün lazım olan layihələrin həyata keçirilməsinə imza atır. Bu, Qərbi narahat etməyə bilməz, çünki başda ABŞ olmaqla bəzi Avropa ölkələri hazırda da xalqları öz müstəmləkəsində saxlamaq uğrunda mübarizə aparırlar. Onlar bu yolda AŞPA kimi qurumlardan, Şvabe kimi korrupsioner deputatların rolundan istifadə edir və Azərbaycana qarşı qarayaxma kampaniyasını daha da genişləndirirlər",

Ekspert qeyd edib ki, dünyada seçilən, beynəlxalq tədbir olan COP29-a evsahibliyi etmək və onu yüksək səviyyədə keçirmək bəşəriyyətin gələcəyi, dünyada əmin-amanlığın qorunması, atmosferin sağlamlaşdırılması baxımından çox əhəmiyyətlidir. Ölkəmiz bu tədbirə ciddi hazırlaşır. Azərbaycan bundan əvvəl də yüksəksəviyyəli beynəlxalq tədbirlərə evsahibliyi edib, təşkilatçılığı ilə dünyaya nümunə olub. Konfrans ərəfəsində ölkəmizə qarşı atılan məkrli addımlar onu göstərir ki, Qərbi insanların taleyi, gələcəyi deyil, öz maraq və mənafeleri daha çox düşündürür: "Belə olmasaydı, COP29-un daha yüksək səviyyədə keçirilməsinə əhəmiyyət verərək, öz köməklərini Azərbaycandan əsirgəməzdilər. Təəssüflər olsun ki, belə bir vaxtda Şvabe kimi təxribatçı siyasətçilərdən istifadə edərək Azərbaycana qarşı çirkin kampaniya aparılır. Azərbaycanda guya söz, mətbuat azadlığının məhdudlaşdırıldığı, siyasi məhbuslar olduğu, insanların siyasi baxışlarına görə təqib edildiyi iddia olunur. Şvabelər belə üsullardan istifadə edərək Azərbaycanın artan imicinə kölgə salmağa çalışırlar".

Onun sözlərinə görə, Avropa İttifaqı, AŞPA öz imicini belə saxtakar deputatlara etibar edir. Əlbəttə, bu, həmin dövlətlərin, beynəlxalq təşkilatların nüfuzuna heç bir töhfə vermir, əksinə, onları hörmətdən salır.

Şvabelərin uydurduqları böhtanların Qərbdən qaynaqlandığını deyən T.Rzayev bildirib ki, bütün bunlar bir nöqtədən idarə olunur: "Çünki ABŞ-nin siyasətçilərinin və Aİ-nin müəyyən məsul dairələrinin dedikləri Şvabenin uydurduqları ilə üst-üstə düşür və ya onu təkrarlayır. Azərbaycan sülh, azadlıq, demokratiya yolunda inamlı addımlar atır. Prezidentin çıxışlarında bu, özünü aydın göstərir. Ölkə rəhbəri dəfələrlə xatırladıb ki, Azərbaycan qalib dövlət olsa da, Ermənistanla sülh bağlamaq, mehriban qonşuluq şəraitində yaşamaq fikrindədir. Təəssüf ki, Qərbin təkidi, tapşırığı ilə sülh müqaviləsinin imzalanması gecikdirilir. Bu gün Ermənistan nəinki sülhə gəlmir, həm də ABŞ, Fransa və digər ölkələrdən silah-sursat almaqla yenidən revanş götürmək fikrindədir. Bu, Şvabe kimi deputatların çağırışlarının nəticəsidir. Bu saxta oyunçular Qərbin dediklərini ifadə edirlər. Ancaq onlar bilməlidirlər ki, Azərbaycan qüdrətli dövlətdir, güclü orduya malikdir, xalq birdir, öz suverenliyini, müstəqilliyini qorumaq əzmindədir. Bunun üçün hər bir kəs səfərbər olmağı bacarır".

Siyasi şərhçi qeyd edib ki, şvabelərin dedikləri sabun köpüyünə bənzəyir və belə bəyanatlar çox verilir, bundan sonra da veriləcək. Azərbaycan xalqı, bəşəriyyət belə çağırışlara artıq inanmır. Müstəqilliyə, demokratiyaya can atan xalqlar Azərbaycanın haqq yolunda olduğunu bilir və yeri gələndə onu dəstəkləyirlər. COP29 kimi mötəbər, bəşəriyyətin inkişafına, gələcəyinə xidmət edən tədbirə kölgə salmaq isə bəşəriyyətə xəyanət, insanlığa zidd, beynəlxalq normaların ciddi şəkildə pozulmasıdır.